Hasanlı, M. (2024). Türkmən Yazıçısı Qılıç Quliyevin "Məhtimqulu" Romanında Məhtimqulu Fəraqinin Obrazı, *Folklor Akademi Dergisi,* Doğumunun 300. Yılında Mahtumkulu Firaki ve Türkmen Edebiyatı Özel Sayısı. Cilt:7, Sayı: Özel, 24 – 29.

**Makale Bilgisi / Article Info**
Geliş / Received: 30.03.2024
Kabul / Accepted: 19.04.2024
**Araştırma Makalesi/Research Article**

**DOI:** 10.55666/folklor.1461905

FOLKLOR AKADEMİ DERGİSİ

# TÜRKMƏN YAZIÇISI QILIÇ QULİYEVİN "MƏHTİMQULU" ROMANINDA MƏHTİMQULU FƏRAQİNİN OBRAZI

**Mehman HASANLI***

**Xülasə**

1980-ci illər Sovetlər birliyinin tərkibində yaşayan türk xalqlarının həyatında ictimai-siyasi hadisələrin fonunda ciddi dəyişmə prosesləri müşahidə olunmaqdaydı. Böyük əraziləri, ayrı-ayrı dövlətlərinin əksəriyyətini zorla, işğal yoluyla tərkibinə qatan Sovet imperiyası dağılmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Belə olduğu təqdirdə, imperiyanın tərkibində yaşayan türk xalqlarının həyatında, o cümlədən ədbiyyatlarında dəyişmə, yenilənmə prosesləri getməkdəydi. Yaranan yeni və qismən demokratik mühit ədəbiyyatda ilk növbədə milli məzmunun güclənməsinə şərait yaratmışdı. Türkmən ədəbiyyatında da bu dövrdə qeyd etdiyimiz demokratikləşmə proseslərinin ifadəsini görmək mümkündür. Müstəqillik öncəsində baş verən bu proseslərin nəticəsində Türkmən ədəbiyyatında tarixi şəxsiyyət məsələsi ön plana çıxmağa başlayır. 1980-ci illərdə Türkmənistanın müstəqillik ideyasını, milli düşüncəsini ədəbiyyatda ifadəsi baxımından klassik türkmən ədibləri, birlik uğrunda mübarizə aparmış tarixi qəhrəmanların obrazının yaradılması məsələsi aktuallıq qazanmağa başlamışdır. Gövşüd xan, Dövlətməmməd Azadi, Molla Nəfəs və türkmən ədəbiyyatının simvolu olan Məhtimqulu Fəraqi bu dövrdə türkmən nasirlərinin ən çox müraciət etdiyi ədəbi-tarixi şəxsiyyətlərdir. 1980-ci illərdə, müstəqillik öncəsində türkmən romanında ən çox müraciət olunan tarixi şəxsiyyət heç şübhəsiz ki, Məhtimqulu Fəraqi olmuşdur. Həyatını və yaradıcılığını türkmən tayfalarının birliyinə, xalqının rifahına həsr edən böyük türkmən şairi Məhtimqulu Fəraqi hər zaman olduğu kimi, bu dövrdə də xalqın əsas milli simvoluna çevrilmişdir. Tədqiqata cəlb etdiyimiz Qılıç Quliyevin "Məhtimqulu" romanında da görkəmli türkmən şairi, türkmənlərin birliyi uğrunda həyatı boyu mübarizə aparmış Məhtimqulunun obrazı yaradılmışdır. Məhtimqulu Fəraqinin gənclik, yetkinlik dövründən başlayaraq qocalığına qədər həyatının əsas məqamlarının təsvir olunduğu "Məhtimqulu" romanını avtobioqrafik roman da adlandırmaq olar. Qılıç Quliyevin "Məhtimqulu" romanı görkəmli türkmən ədibini bütün tərəfləri ilə göstərən ən yaxşı roman nümunələrindən biridir. Romanda Məhtimqulunun gənclik vaxtından başlayaraq atası Dövlətməmməd Azadi ilə söhbətləri, dostları ilə türkmənlərin birliyi naminə mübarizəsi, Mənqliyə olan sonsuz sevgisi, Xivədə təhsil dövrü və ordan qayıtdıqdan sonra həm şair. Həm də ictimai xadim kimi fəaliyyətinin əsas cizgiləri bədii planda təsvir edilmişdir. Məqalədə Qılıç Quliyevin "Məhtimqulu" romanında Məhtimqulu Fəraqinin həyat və yaradıcılığının, ictimai ideallarının reallıqdan bədii nəsrə köçürülməsi, əks olunması tədqiqata cəlb edilmişdir.

**Açar sözlər:** Məhtimqulu, Azadi, türkmən, birlik, şair, vətən

.

* Doç.Dr., Azerbaycan Milli İlimler Akademisi, Nizami Edebiyat Enstitüsü, Bakü/Azerbaycan, 0000-0003-3036-2646

## IMAGE OF MAGTYMGULY PYRAGY IN THE NOVEL “MAGTYMGULY” BY TURKMEN WRITER KİLİCH GULİYEV


### Abstract

Against the backdrop of social and political developments, significant changes were observed in the lives of Turkish people residing in the Soviet Union throughout the 1980s. The Soviet empire faces the possibility of collapsing after annexing substantial regions and the majority of its component nations via force and occupation. In this case the Turkic peoples living in the empire were undergoing processes of renewal and transformation in all aspects of their lives, including their literature. The new and partially democratic environment led to the strengthening of the national content in literature. In the Turkmen literature, it is possible to observe the expression of the democratization processes mentioned in this period. These pre-independence processes cause the question of historical identity to become more prominent in Turkmen literature. The problem of expressing the image of classic Turkmen writers and historical heroes who struggled for unity started to become relevant in terms of conveying the notion of independence and national thinking of Turkmenistan in literature in the 1980s. Govshud Khan, Dovlatmammad Azadi, Molla Nafas and Magtymguly Pyragy, a symbol of Turkmen literature, are the literary and historical figures most often addressed by Turkmen prose writers in this period. In the 1980s, before independence, the most frequently addressed historical figure in the Turkmen novel was undoubtedly Mahtimgulu Faraqi. The great Turkmen poet Mahtimgulu Faraqi, who dedicated his life and creativity to the unity of the Turkmen tribes and the welfare of his people, has become the main national symbol of the nation. In the novel “Magtymguly” by Kilich Guliyev, which is involved in the study, the image of Magtymguly, a prominent Turkmen poet who struggled for the unity of Turkmen throughout his life, was created. The novel “Magtymguly” can be considered as an autobiographical work that chronicles the significant events in Magtymguly Pyragy’s life, from youth and adulthood to old age. In the novel, Magtymguly’s conversations with his father Dovlatmammad Azadi her struggle for Turkmen unity with her friends, her endless love for Mangli, starting from his youth, his education period in Khiva, and the main features of his activities as a poet and a public figure are described in an artistic plan. The research entailed transferring and reflecting societal values from reality to creative prose in Magtymguly Pyragy’s life and creativity through the novel “Magtymguly” by Kilich Guliyev.



**Keywords:** Mahtimgulu, Azadi, Turkmen, unity, poet, homeland.


## TÜRKMEN YAZAR KILIÇ GULİYEV'İN "MAHTİMGULU" ROMANINDAKİ FARAGİ MAHTİMGULU KARAKTERİ


### Öz

1980'li yıllarda Sovyetler Birliği'nde yaşayan Türk halklarının hayatında sosyal ve siyasi anlamda ciddi değişiklikler olmaktaydı. Geniş toprakları ve bu topraklarda yerleşen devletlerin çoğunu zorla ve işgal yoluyla ilhak eden Sovyet imparatorluğu, parçalanma tehdidiyle karşı karşıya kalmıştı. İmparatorluk içinde yaşayan Türk halklarının hayıtnda, aynı zamanda edebiyatlarında değişim ve yenilenme süreçleri yaşanıyordu. Yeni ve kısmen demokratik ortam, edebiyatta ulusal içeriğin güçlenmesinin koşulların yaranmasına neden olmuştur. Türkmen edebiyatında bu dönemde bahsedilen demokratikleşme süreçlerinin ifadesini görmek mümkündür. Bağımsızlık arefesinde yaşanan bu süreçler sonucunda Türkmen edebiyatında tarihi kimlik meselesi ön plana çıkmıştır. 1980'li yıllarda Türkmenistan'ın bağımsızlık düşüncesinin ve milli düşüncesinin edebiyatta ifade edilmesi açısından klasik Türkmen yazarlarının ve birlik uğruna mücadele eden tarihi kahramanların imajının oluşturulması konusu önem kazanmaya başlamıştır. Govşud Han, Dovlatmammad Azadi, Molla Nafas ve Türkmen edebiyatının simgelerinden olan Mahtimgulu Faraqi, bu dönemde Türkmen roman yazarlarının en çok ele aldığı edebi ve tarihi şahsiyetlerdir. Bağımsızlık öncesinde, 1980'li yıllarda Türkmen romanında en çok ele alınan tarihî şahsiyet hiç şüphesiz Mahtimgulu Faragi olmuştur. Hayatını ve yaratıcılığını Türkmen boylarının birliğine ve halkının refahına adayan büyük Türkmen şairi Mahtimgulu Faragi, her zaman olduğu gibi bu zaman aralığında da milletin temel milli simgesi haline gelmiştir. Çalışmaya dahil ettiğimiz Kılıç Guliyev'in "Mahtimgulu" romanında hayatı boyunca Türkmenlerin birliği için mücadele eden önemli bir Türkmen şairi olan Mahtimgulu karakteri, onun hayatı ve edebi kişiliğinden bahs edilmiştir. Mahtimgulu Faragi'nin gençlik ve yetişkinlik döneminden yaşlılığına kadar hayatını anlatan "Mahtimgulu" romanı otobiyografik bir roman olarak

adlandırılabilir. Romanda Mahtimgulu'nun gençliğinden itibaren babası Devlatmammad Azadi ile yaptığı konuşmalar, arkadaşlarıyla Türkmen birliği için verdiği mücadele, Mangli'ye olan sonsuz sevgisi, Hive'de öğrenim gördüğü dönem ve oradan döndükten sonra birlik için apardığı mücadele romanın içeriğini oluşturmaktadır. Ayrıca, halka açık bir figür olarak faaliyetinin temel özellikleri sanatsal bir planda tasvir edilmiştir. Makalede Kılıç Guliyev'in "Mahtimgulu" romanında Mahtimgulu Faragi'nin hayatı ve yaratıcılığının, toplumsal ideallerinin gerçeklikten sanatsal düzyazıya aktarımı ve yansıması araştırma kapsamına alınmıştır.

**Anahtar Kelimeler**: Mahtımgulu, Azadi, türkmen, birlik, şair, vatan

## Giriş

"Bolşevikərin hakimiyyətə gəlməsi ilə qurulan yeni sovet imperiyası mövcud olduğu 70 il müddətində nəzarətində olan və ya ideologiyalarını yaya bildikləri geniş coğrafiya sayəsində dünyanın bir qütbünə çevrilə bildilər" (Həsənli, 2023: 19). Lakin 1970-1980-ci illərdə imperiyanın təsisatları tükənməkdə, 1980-ci illərdə isə çökəcəyi labüdləşməkdəydi. Xruşşov dövründə elan edilən Yenidənqurma siyasəti, hüquqların artırılması milli azadlıq, dövlətlərdən SSRİ adlanan zindandan xilası naminə mübarizəni artırırdı. Müstəqillik uğrunda mübarizə, tarixə istinad edərək xalqın azadlıq ideyalarının tərənnüm edən romanlar türkmən nəsrində 1980-ci illərin sonlarına doğru yaranmağa başlayır. Türkmən romanında janrın məzmun baxımından əsaslı yenilənməsi məhz bu dövrə təadüf etməkdədir. 1980-ci illər türkmən romanında sosialist rejimin tənqidinə, ideologiyadan təmizlənmiş insan münasibətlərinin təsvirinə həsr edilmiş roman nümunələri meydana gəlməyə başlayır. İdeologiyanın təsirinin zəifləməsi nəticəsində türkmən tarixi romançılığı özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. Ədəbiyyatda milli məzmun güclənməyə başlayır. "Yenilikçi bir qrup yazıçı milli mədəniyyəti və tarixi ön plana çıxararaq xalqın şüurunu yenidən inşa etməyə çalışırlar. Türkmənləri öz köklərinə dönməyə səsləyirlər" (Gökçimen, 2011: 269).

**Əsas hissə.** Heç şübhəsiz ki, türkmən ictimai-ədəbi fikrinin mərkəzində duran, onun milli varlığını ifadə edən şəxsiyyət Məhtimqulu Fəraqi olmuşdur. Yaşadığı həyat, milli ideallar naminə apardığı mübarizə və məzmunlu bədii yaradıcılığı ilə Məhtimqulu Fəraqi türkmənlərin simvoluna çevrilmişdir. Onun əsərlərinin əlyazma nüsxələri müasir Türkmənistanda müqəddəslik zirvəsinə yüksəlib. Təbii ki, 1980-ci illər türkmən romanında da Məhtimquluya müraciət əhəmiyyətli yer tutmuşdur. Bu elə bir dövr idi ki, müstəqillik və azadlıq üçün milli ruhun, düşüncənin oyadılması vacibiyyət kəsb edirdi. Dövlətməmməd Azadi, Gövşüd xan, Molla Nəfəsin roman mətnlərində obrazlarının yaradılması məhz bu zərurətdən meydana çıxmışdır.

Yazdığı şeirləri ilə türkmən poeziyasında milli özünüdərk ideyalarını qüvvələtlindirən, türkmənlərin birliyi ideologiyasının banisi sayılan Məhhtimqulu Fəraqinin obrazı bir çox bədii nümunələrdə canlandırılmışdır. H. Durdıyevin "Məhtimqulu haqqında düşüncələr", T. Taganovun "İncili-xəzinə", Q.Qurbanşatovun "Dəvət", Berdi Kerbabayevin "Məhtimqulu" və digər əsərlərdə Məhtimqulu Fəraqinin parlaq bədii obrazı yaradılmışdır.

Məhtimqulu Fəraqinin bioqrafiyasını əks etdirən türkmən romanlarından biri Qılıç Quliyevin 1989-cu ildə nəşr olunan "Məhtimqulu" romanı olmuşdur. Romanda Məhtimqulunun gəncliyindən başlayaraq qocalığına qədər böyük bir həyat dövrü bütün incə çalarları ilə əks etdirilmişdir.

> *"Türkmən yazıçısı və dramaturqu K.Kuliyev "Məhtimqulu" romanının köməyi ilə müasir oxucunu XVIII əsrlə tanış edir. bizi əsrə aparır. Müəllif bu əsərində Məhtimqulunun çəkdiyi çətinliklərlə yanaşı, türkmən xalqının sosial müstəqillik savaşından da bəhs etmişdir" (Tatlıyeva, 1997: 258).*

İki kitabdan ibarət olan romanın birinci kitabında Məhtimqulunun gənclik dövrü, dostları Məti və Yağmurla olan münasibətləri, söhbətləri, Mənqliylə sevgisi və Xivəyə gedişi və orada təhsil aldığı dövrdəki baş verən hadisələr təsvir edilmişdir. Romanın əvvəlində Məhtimqulunun şəxsiyyətini, onun hislərini və düşünclərini ifadə etmək baxımından dostları Məti və Yağmurla olan söhbətləri, bəzən sərt şəkildə olan dialoqları mühüm əhəmiyyət kəsb edir.

> "*Razıyam, Mətican, günəş son dəfə batmayacaq, həm arzu, həm də güc varkən, həyatdan bacardıqlarımızı götürməliyik - səyahət etmək, görmək, öyrənmək... Yaşamağa çalışmaq lazımdır, mənalı həyat. Məhtimqulu həmsöhbətinə diqqətlə baxdı. "Təəssüf ki, bu gün insan istəklərini həyata keçirmək çətindir." Səhər parlaq ümidlərlə oyanırsınız, amma günorta sizi nə gözlədiyini dəqiq bilmirsiniz. Beləliklə, atınızın üzərinə gözəllik qoyacağınıza əminsiniz. Bəs taleyi döndərsə və özünüzü ən cəsurların çıxmadığı bir burulğanda tapsanız?"* (Кулиев, 1987)

"Məhtimqulu" romanında ən çox diqqət edilən mövzu heç şübhəsiz ki, türkmən tayfaları arasında olan münasibətlərdir. Məhtimqulu hələ gənc yaşlarından tayfalararası münasibətlərlə bağlı öz şəxsi düşüncələri olan gənc kimi təsvir edilir. Qonşu tayfalardan birinin üzərinə yürüş elan edilərkən Məhtimqulu buna qarşı çıxır. Çovdur xan və əsas da onun oğlu, Məhtimqulu və onun dostları Məti və Yağmurun həmyaşıdı olan Adna xanla sərt mübahisə edirlər. Baxmayaraq ki, atası Dövlətməmməd Azadi də bu yürüşə gedənlərə öz xeyir-duasını verir. Nəticədə Məhtimqulunun qardaşları Abdulla və Məmmədsap bu hücumdan geri

qayıtmırlar. Atası Dövlətməmməd və Məhtimqulunun özü də qardaşlarının yolunu gözləyir. Bir gün onların geri dönəcəyinə ümid edirlər.

"Məhtimqulu" romanında müəllif türkmənlərin yaşadığı coğrafiyanın və türkmən tayfalarının, onların etnoqrafik cizgilərinin təsvirinə geniş yer verir.

*"Şərqdən Hacıqovşan ucsuz-bucaqsız dağ silsilələri ilə həmsərhəd idi. Orada, dərələrdə və düzənliklərdə oturaq yaşayan Göklənlərin əsas hissəsi yaşayırdı. Qərbdə isə Yomudların məskunlaşdığı düz bir çöl uzanırdı. Sonqidağ dağı birbaşa şimala doğru uzanırdı. Onun ətəyindən, Atrek sahilləri boyunca şıltaqcasına və şiddətlə sularını şərqdən qərbə yuvarlayaraq, Yomudların və Göklənlərin maldarları sığınacaq tapdılar. Sonqıdağın o tayında geniş çöl uzanırdı. Şərqdə Ceyhun, şimalda Qaraqum, qərbdə Xəzər dənizi, cənubda Xorasan dağları ilə birləşən burada qədim zamanlardan türkmən tayfaları yaşamışlar. Yomudlar, Göklən, Təkə, Ərsarı, Sarık, Salor, Əlili, Əmrəli, Çovdur - onlarla tayfa və tayfa bu geniş çöl genişliklərinə sahib idi"* (Кулиев, 1987).

Romanda Məhtimqulu ilə atası Dövlətməmməd Azadinin söhbətləri xüsusi yer tutur. Dövlətməmməd Azadi əsərdə müdrik el ağsaqqalı kimi təsvir edilir. Həm Dövlətməmməd Azadi, həm də onun oğlu Məhtimqulu Fəraqi türkmənlərin birliyini özlərinin əsas ictimai idealı hesab edərək ömürlərinin sonuna qədər bu ideal naminə çalışmışlar.

*"Dövlətməmməd Azadi və Məhtimqulunun yaşadığı XVIII əsrdə türkmənlərin milli dövləti olmamış və tayfalar arasında yaranan fikir ayrılıqları türkmən xalqının ağır günlər keçirməsinə səbəb olmuşdur. Azadi də, Məhtimqulu da öz şeirlərində dağınıq türkmən tayfalarını birləşdirərək müstəqil dövlət qurmağın vacibliyini ortaya qoyur, öz vəzifəsini layiqincə yerinə yetirməyən dövlət idarəçilərindən, ruhanilərdən şikayət edirdilər. Əslində hər iki şair türkmən xalqının o zamankı hisslərini tərcümanı olmuşlar" (Sağlam, 2014: 133).*

Oğlunun təhsilinin vacib olduğuna inanır və Məhtimqulunun Xivədə təhsil almasını zəruri hesab edir. Romanın birinci hissəsində atası ilə Məhtimqulunun türkmənlərin birliyi ilə bağlı fikir mübadiələri də böyük əhəmiyyətə malikdir. Bu müzakirələrdə Dövlətməmməd Azadi müdrik el ağsaqqalı kimi davranır. Romanda onların İmadəddin Nəsimi və onun hürufi düşüncələri ilə bağlı geniş diskussiyası öz əksini tapır. Məhtimqulu isə atasının biliyi, müdrikliyi ilə fəxr edir.

*"O, atasının istedadı ilə fəxr edirdi. Necə qürur duymayasan? Xalq arasında Dövlətməmməd Azadi yetmiş iki elmə yiyələnmiş alim sayılırdı. Onun qəzəlləri və didaktik şeirləri Xivədən Buxaraya qədər son dərəcə məşhur idi. O, Quranın bütün surələrini əzbər bilirdi, şəriəti, təriqəti, həqiqəti bilirdi, Əflatunun əsərlərini, Firdovsinin, Nəsiminin, Nizaminin, Nəvainin fəlsəfi görüşlərini hərtərəfli öyrənirdi"* (Кулиев, 1987).

Məhtimqulu isə atası ilə dialoqlarında daha ötkəm və biraz da sərt düşüncələrini bildirir. Atası isə hər zaman oğlu ilə qürur duyur. Onu şeirlərinin xalq arasında sevilməsini və bu şeirlərin türkmənlərə haqqı, doğruluğu, ədaləti və birliyi təlqin etməsinə sevinir. Hər ikisinin gəldiyi qənaət türkmənlərin birliyi ilə bağlı olur. Həm Azadi, həm də Məhtimqulu türkmənlərin zəif qalmasının əsas səbəbini müxtəlif tayfalara parçalanmaqda, vahid dövlət halında birləşə bilməməkdə və aralarında olan müharibələrdə görürdülər.

*"Biz özümüz günahkarıq. Xalq birləşməlidir - bu, birinci, ən vacib problemdir. Birləşmiş qəbilə və tayfalar öz iradələrinin qılıncını ədalətli hökmdarına təhvil verdikdə, haqq və rifah yoluna qədəm qoymaq daha asan olar"* (Кулиев, 1987).

Romanın birinci hissəsinin böyük bir qismi Məhtimqulunun Xivədə təhsil həyatına həsr olunub. Məhtimqulunun Xivəyə getməsi heç də asan olmur. Çox sevdiyi Mənqli onun getməsini istəmir. Çünki gedəcəyi təqdirdə onu başqa birisiylə evləndiriləcəyini bilir. Belə olan halda Məhtimqulu olduqca çətin seçim qarşısında qalır. Hətta anası iki sevgilinin qovuşmasına çalışsa da, atası Dövlətməmməd buna qarşı çıxır, oğlunun mütləq Xivəyə oxumağa getməsinin vacibliyini bildirir. Nəticədə Məhtimqulunun Xivəyə getməsiylə Mənqli zorla ərə verilir. Xivədə və ondan ömrünün sonuna qədər Məhtimqulunu Mənqli ilə bağlı düşüncələri rahat buraxmır. Qocalanda onunla görüşdüyü çay sahilini unuda bilmir.

*"Mənqli... Çiçəklər arasında Məhtimquluna məhəbbət, onun açmasından gözəl, daha arzuolunan gül yox idi. Və buna görə də ayrılıq bu qədər kəskin idi. Düz deyirlər ki, tikansız gül olmaz, iztirabsız sevgi olmaz..."* (Кулиев, 1987)

Məhtimqulu Xivədən geri qayıdanda artıq anası dünyasını dəyişmiş, itkin düşmüş iki qardaşından isə xəbər yox idi. Atasının yeganə ümid yeri oğlu Məhtimqulu Fəraqi idi. Romanın ikinci kitabında Məhtimqulu daha çox öz milli idealları uğrunda mübarizə aparan ictimai xadim kimi təqdim edilir. Nurtac adlı qızla evlənsə də Mənqlini heç cür unuda bilmir. Bir neçə dəfə onu görmək üçün getmək istəsə də dostları Məti və Yağmur ona mane olurlar. Başqası ilə evli olan bir qadına baxmağı adət-ənənəyə zidd olduğunu bildirirlər. Gerçək aşiq Məhtimqulu və ictimai ideallar naminə mücadilə aparan Məhtimqulunun bir şəxsdə təsvir edildiyi “Məhtimqulu” romanı 1980-ci illər türkmən ədəbiyyatında, romançılığında milli ideyanın inkişafı baxımından böyük əhəmiyyət daşıyan əsərdir. 1980-ci illər türkmən ədəbiyyatı üçün xüsusi bir mərhələ təşkil etməkdədir. Xüsusilə 1980-ci illəri sonlarına doğru, SSRİ-nin dağılmasının labüdlüyü kontekstində ədəbiyyatda transformasiya proseslərinin getməsi zəruri idi. Türkmən romanı yeni tarixi mərhələyə əsasən məzmun dəyişikliyi ilə daxil olmuşdur. Ənənəvi sosialist realizminin prinsiplərinə uyğun olaraq daha çox kolxoz və sovxozların quruculuğunu tərənnüm edən romanlarla birlikdə bu dövrdə ciddi ictimai məzmun kəsb edən, tarixi köklərə və şəxsiyyətlərin düşüncələrinə əsaslanan roman nümunələri də yaranmaqda idi. 1980-ci illərin ikinci yarısında daha çox cəmiyyətdəki naqisliklərin tənqidi ilə dəyişməyə başlayan türkmən romanı onilliyin sonlarına doğru ictimai-tarixi mövzulara fokuslanmağa başladı. Gövşüd xan, Dövlətməmməd Azadi, Molla Nəfəs və türkmən ədəbiyyatının birlik simvolu olan Məhtimqulu Fəraqinin əsərləri, kəlamları və həyatı bu romanların əsas istinad nöqtəsi kimi çıxış etməyə başladı. Tarixdə türkmənlərin birliyi uğrunda aparılan mübarizə fonunda 1980-ci illərdə yazıb-yaradan türkmən yazıçıları ölkənin azadlığı və müstəqiliyinin zəruriliyini irəli sürməyə başladılar.

Berdinəzər Xudaynəzərovun “Qumlular” romanı ilə başlayan yeniləşmə, sosialist realizminin sərt qəlibinin dağılması prosesləri Oraz Yağmurun “Duman çəkiləndə”, Tirkiş Cumagəldiyevin “Qara İldırım”, Qılıç Quliyevin “Məhtimqulu” romanları ilə davam etmiş və nəticədə Türkmənistanın yenidən müstəqilliyi, azadlığı ideyası yaranıb inkişaf etmişdir.

Ümumilikdə, 1980-ci illər türkmən romançılığı qazandığı milli məzmun keyfiyyəti ilə seçilmiş və bu ənənə 1990-cı illərdə, müstəqilliyi qazandıqdan sonra yeni istiqamətlər qazanaraq inkişaf etmişdir. Tarixi şəxsiyyətlərin obrazlarının yaradılması, onların şeirlərinin, şəxsi həyat təcrübələrinin roman mətninə gətirilməsi prosesi sonrakı illərdə də türkmən romançılığında öz funksionallığını qoruyub saxlamışdır.

## Kaynaklar

GÖKÇİMEN, A. (2011). *Başlangıçtan Bağımsızlığa Kadar Türkmen Romanı*. Erzurum: Fenomen Yayıncılık.

SAĞLAM, S. (2014). *“Mahtumkulu’nun Edebî Şahsiyetinin Oluşumunda Babası Dövletmemmet Azadı’nın Etkisi”.* Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, Sayı: 3/2, 128-153.

HƏSƏNLİ, M. (2023). “*Smaqul Elubayın “Ağ çadır” romanında kosmos-xaos əvəzlənməsi”*. Müqayisəli ədəbiyyatşünaslıq Dərgisi, 2023, Sayı: 2, 18-24. https://doi.org/10.59849/2663-4414.2023.1.18

TATLIYEVA, L.A. (1997). “*Şair Mahtumkulu Hakkında Kitaplar”.* Bilig dergisi, 6/Yaz, 256-258.

КУЛИЕВ, К. М. (1987). *Махтумкули*. Ашхабад: Магарыф.